

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 229 (21.639)

2 dekabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də ABŞ-ın ticarət nazirinin Avropa, Orta Şərq və Afrika üzrə müşavirinin müavini Maykl Lallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini, mühüm enerji layihələrinin sürətlə həyata keçirildiyini qeyd edərək hazırkı şəraitdə əsas diqqətin qeyri-neft sahəsində də əməkdaşlığa yönəldilməsinin önəmini vurğulayıb və ABŞ ilə ölkəmizin qeyri-neft sektorunda daha fəal əməkdaşlığının həyata keçirilməsinin əhəmiyyətini qeyd edib.

Maykl Lalli ABŞ-ın Azərbaycandakı səfirliyində çalışdığı illəri məmnunluqla xatırlayıb. O, ABŞ-ın ticarət naziri Penni Pritzkerin salamlarını dövlətimizin başçısına çatdıraraq onun Azərbaycan-ABŞ biznes əlaqələrinə Prezident İlham Əliyevin verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 1 dekabr tarixli sərəncamları ilə Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyaları sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup rabitə işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları da vardır.

**Qocayev Elbrus Sultan oğlu**

"Əməkdar mühəndis" fəxri adı ilə,

**Əliyev Elxan Əli oğlu**

**Əliyev Üzeyir Arif oğlu**

**Hüseynov Ərəstun Əsəd oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı yaxın günlərdə fəaliyyətə başlayacaq

***Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə bağlı bütün hazırlıqlar başa çatdırılıb. 2016-cı ilin ötən dövrü ərzində "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İran Dəmir Yolları arasında dəmir yollarının rəhbər heyəti və ekspertlərinin iştirakı ilə Naxçıvan, Təbriz, Tehran və Bakı şəhərlərində bir neçə görüş keçirilib, imzalanmış ikitərəfli protokollara əsasən, Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması, onunla əlaqədar tariflər razılaşdırılıb.***

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumatda bildirilir ki, adıçəkilən dəmir yolu marşrutu üzrə beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə əlaqədar Bakı şəhərindən 3 ədəd müasirtipli sərnişin vaqonu gətirilib. Hər biri kupetipli vaqon 36 yerlikdir. Vaqonlar istilik və soyutma sistemləri ilə təchiz edilib, marşrut üzrə xidmət göstərəcək bələdçilərə Bakı şəhərində kurs keçirilib. Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı 3 vaqondan ibarətdir və qatar Culfa stansiyasında (İran) qəbul edildikdən sonra vaqonların təkər cütləri dəyişdiriləcək İran İslam Respublikasının Təbriz şəhərinə qədər hərəkət edəcək, sonra isə vaqonlar Təbriz-Məşhəd qatarına qoşulacaq. Eyni zamanda geri qayıdarkən vaqonlar Məşhəd şəhərindən Təbrizə qədər, daha sonra isə ayrı lokomotivlə Culfaya (İran) qədər hərəkət edəcəkdir. Culfadan isə Azərbaycana məxsus lokomotivlə Naxçıvan şəhərinə çatdırılacaq.

Məlumatda o da qeyd olunur ki, Naxçıvan və Culfa stansiyalarında sərnişinlərin gömrük və sərhəd buraxılışı qeydiyyatının asanlaşdırılması məqsədilə müasir avadanlıqlar quraşdırılıb. Marşrut üzrə sərnişin biletlərinin satışını onlayn, Naxçıvan və Culfa dəmir yolu stansiyalarında yerləşən kassalardan adi qaydada, eyni zamanda İran İslam Respublikasının Culfa, Təbriz, Tehran və Məşhəd şəhərlərinə qədər və əks-istiqamətdə əldə etmək olacaq. Sərnişin qatarı Naxçıvan şəhərindən həftədə iki dəfə hərəkət edəcək. Ümumi uzunluğu 1858 kilometr olan Naxçıvan-Təbriz-Tehran-Məşhəd dəmir yolunda Naxçıvandan Məşhədə qədər gediş haqqı 40 İsveçrə frankı təşkil edir. Gediş haqqı tarifinə ağ yataq dəstindən istifadənin dəyəri və bütün yığımlar daxildir. Əks-istiqamət üzrə də tariflər eynidir. Tariflər satış tarixində İsveçrə frankının manata olan məzənnəsi ilə müəyyən edilir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanmış Çərçivə Sazişində öz əksini tapıb.

## Nağdsız ödənişlərlə bağlı seminar keçirilib

***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və muxtar respublika Vergilər Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki Kollecində nağdsız ödənişlərin əhəmiyyəti barədə maarifləndirici seminar keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası çərçivəsində keçirilən seminarda kollecin müəllim və tələbələri iştirak edib.

Tədbiri kollecin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov açaraq nağdsız ödənişlərin genişləndirilməsinin əhəmiyyətindən danışıb, vətəndaşların rahat şəkildə nağdsız ödəniş etmələri üçün yaradılmış müasir infrastrukturdan bəhs edib.



Seminarda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Tural Şirəlizadə çıxış edərək nağdsız ödənişlərin mahiyyəti və nağdsız əməliyyatların həcmindəki artımı şərtləndirən amillər barədə danışıb, bu sahənin inkişaf etdirilməsi istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən işlər, əldə olunan nəticələr, bu nəticələrin muxtar respublika iqtisadiyyatına verdiyi töhfələrdən bəhs edib. Tural Şirəlizadə bankların təklif etdiyi elektron bank xidmətləri, bu xidmətlərin əldə olunması və istifadəsinin ictimai faydaları haqqında da seminar iştirakçılarına məlumat verib.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərov "Nağdsız ödəniş üsullarının vergi daxilolmalarındakı artıma təsiri və iqtisadi səmərəliliyi" mövzusunda çıxış edib. Bildirilib ki, nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində 2016-cı ilin 1 noyabr tarixinə muxtar respublika ərazisində 549 ədədi Naxçıvan şəhərində, 632 ədədi rayon və kənd mərkəzlərində olmaqla, 1181 ədəd POS-terminal elektron qaydada qeydiyyatdan keçirilərək quraşdırılıb. 2014-cü ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir "Nağdsız ödəyin, hədiyyə qazanın" adlı həvəsləndirici tədbir keçirilir. Bu həvəsləndirici tədbirlər çərçivəsində ötən dövr ərzində nağdsız hesablaşma üsullarından (POS-terminal, bankomat və internet resurslardan) istifadə edərək ödəniş aparmaqda aktivlik göstərən 842 vətəndaşa 55 min manat dəyərində hədiyyələr təqdim edilib.

Tədbirdə internet üzərindən ödənişlərin aparılması, POS-terminallardan istifadə qaydalarından, nağdsız ödənişlərin istehlakçılara verdiyi təhlükəsizlik, rahatlıq və vaxt itkisinin minimuma endirilməsi məsələlərindən ətraflı bəhs olunub.

Çıxışlardan sonra sorğu-anket vərəqələri paylanılıb və seminar iştirakçılarını maraqlandıran mövzularda müzakirələr aparılıb.

Çıxışlarda o da vurğulanıb ki, belə tədbirlərin keçirilməsi muxtar respublika əhalisində POS-terminallardan istifadəyə olan marağı daha da artırır, nağdsız hesablaşmaların artırılmasına və alıcılıq mədəniyyətinin daha da yüksəlməsinə təkan verir, əhalinin və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə təşviq edilməsində əhəmiyyətli rol oynayır.

Məlumat üçün bildirək ki, bu qəbildən olan tədbirlərin 2016-2017-ci tədris ili ərzində muxtar respublikada fəaliyyət göstərən 20-dən çox orta ixtisas və ümumtəhsil məktəblərində keçirilməsi nəzərdə tutulub.

## Cari ilin ötən dövründə məşğulluq xidməti orqanlarında işsiz statusu alan olmayıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin icrası istiqamətində tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır.*

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, cari ilin 11 ayı ərzində 2607 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işə düzəldilib, 277 nəfər haqqıödənilən ictimai işlərə cəlb olunub. İşlə təmin olunanların 657-si qadınlar, 1066-sı gənclər, 103-ü sağlamlıq imkanları məhdud şəxslər, 31-i hərbi xidmətdən yeni tərxis olunan gənclər, 7-si cəzaçəkmə müəssisəsindən azad olunan şəxslər, 96-sı isə aztəminatlı ailələrin əmək qabiliyyətli üzvləridir.



Qeyd olunan dövr ərzində 73 nəfər kəndlərdə fəaliyyət göstərən xidmət mərkəzlərində müvafiq işlə təmin olunub. Tətil günlərində işləmək istəyən tələbələrin mövsümi işlərə göndərilməsi istiqamətində görülən tədbirlər davam etdirilib, 33 tələbə müvəqqəti xarakterli işlərə göndərilib.

Keçirilmiş əmək yarmarkalarında 352 nəfər, həmçinin təhsil və səhiyyə müəssisələrində keçirilən əmək yarmarkalarında isə, ümumilikdə, 297 nəfər münasib işlə təmin edilib.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində bəhs olunan dövr ərzində əmək bazarının tələbləri nəzərə alınaraq təşkil edilən müxtəlif peşə sahələri üzrə kurslara 389 nəfər, o cümlədən məhdud fiziki imkanlı 47 nəfər, hərbi xidmətdən tərxis olunan 14 nəfər, cəzaçəkmə müəssisəsindən azad olunan 1 nəfər, həmçinin ixtisasartırma kurslarına 93 nəfər, Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində təşkil olunan peşə kurslarına isə 34 nəfər cəlb edilib. Hazırda Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində Bərbər peşəsi üzrə kurs davam edir. Həmçinin Dayə, Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, Qazanxana maşinisti, Aşpaz köməkçisi və Teleaparıcı peşələri üzrə yeni kurslara başlanıb.

Məhdud fiziki imkanlı 23 şəxs tərəfindən toxunan 3000 cüt yun corab və 700 ədəd yun şərf əsgərlərimizə təhvil verilib. "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosialyönümlü haqqıödənilən ictimai işə 11 nəfər xalçatoxuyan evdar qadın cəlb olunub. Onlar tərəfindən toxunan xalçalar təhvil alınıb, Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında təşkil olunan sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda nümayiş etdirilib. Tədbirdə sağlamlıq imkanları məhdud 12 şəxsin, ümumilikdə, 2023 manat məbləğində 5 rəsm və 33 əl işi satılıb. Fərdi təsərrüfatlarını inkişaf etdirmək üçün 2 aztəminatlı ailəyə köməklik göstərilib.

Cari ilin ötən 11 ayı ərzində məşğulluq xidməti orqanlarında işsiz statusu alan olmayıb.

**Xəbərlər şöbəsi**

İstehsal müəssisələri

# Çörəyi ver çörəkçiyə, birini də üstəlik

## Fəaliyyəti ildən-ilə genişlənən "Xalaoğlu" kəndli-fermer təsərrüfatından reportaj






"Xalaoğlu" kəndli-fermer təsərrüfatı yeni çeşiddə məhsul istehsalına başlayıb, xəbərin var? – deyən Nadir kişi üzümə baxdı.

– Xeyr, hansı məhsullardı? – deyə soruşdum.

– "Xalaoğlu" broyler toyuqları. Adı broylerdi. Ev şəraitində bəslənən toyuqlardan seçilmir. Dadına-tamına söz ola bilməz. Hələ bu il istehsalına başlanılan dovğanı demirəm. Neçə illərdir, "Xalaoğlu" məhsullarının alıcısıyam, – deyib bir az fikirləşdi. Nəsə xatırlayıb güldü:

– Niyə güldünüz? – deyə soruşdum.

– Heç, düzünü desəm "Xalaoğlu"nun ştatdankənar satış müdiriyəm.

– Başa düşmədim.

– Bir dəfə Bakıda yaşayan qohum-əqrəba üçün "Xalaoğlu"nun məhsullarından pay tutdum. Elə o gün, bu gün düz 5 ildir ki, "Xalaoğlu"nun məhsullarını Bakıya göndərirəm. Bir dəfə Bakıya getmişdim. Qohum-əqrəbaya baş çəkməli idim. Amma əliboş getməyi də özümə sığışdırmadım. Əti, pendiri Naxçıvandan gətir, ya da ki, Bakı bazarından al, nə fərqi var, – deyə fikirləşib bazarlıq etdim. Həmişəki kimi hər biri üçün pay düzəldib "Naxçıvan payı" adı ilə, necə deyərlər, sırıdım qohumlara. Amma bu məcburi yalanım şam yeməyinədək baş tutdu. Apardığım ətdən hazırlanmış təamlardan daddıq. Üstündən də bir tikə pendir-çörək götürdük ki, çay xoş gəlsin. Çay süfrəsi arxasında xeyli söhbət etdik. Apardıqlarımın Naxçıvan məhsulu olduğuna inandırdığımı zənn edib sevinirdim. Elə bu vaxt qohumun dediyi söz düşüncəmi alt-üst etdi.

– Nadir, bir də belə iş görmə. Mən Naxçıvan məhsullarının dadına-tamına yaxşı bələdəm. Gətirdiyin Bakı bazarlarında satışa çıxarılan ət və süd məhsullarıdır. O məhsulları isə şükür Allaha, almağa imkanımız var.

– Biz gündəlik istifadə etdiyimizdən Naxçıvan məhsullarının fərqli dada, tama malik olduğunun fərqinə varmamışıq. Sən demə, Naxçıvan məhsullarının digər bölgələrdə yetişdirilən məhsullardan başqa bir dadı, tamı var imiş. Vaxt çatdı. Hava limanına gedirəm. Naxçıvan məhsullarının dadına, tamına bələd olan, Bakıda yaşayan qohumlarım, dostlarım üçün "Xalaoğlu"nun məhsullarından göndərəcəyəm, – deyib xudahafizləşdi.

Nahardan sonra "Xalaoğlu" kəndli-fermer təsərrüfatının rəhbəri Rafiq Əliyevin mobil telefonuna zəng vurub fermer təsərrüfatı və orada yaradılan istehsal sahələri ilə bağlı məlumat verməyi xahiş etdim.

– Buyurun, gəlin. Gördüyümüz işlərlə əyani tanış olun.

Beləcə, üz tutduq Babək rayonunun Nehrəm kəndində fəaliyyət göstərən "Xalaoğlu" kəndli-fermer təsərrüfatına.

Kəndin kənarında yerləşən "Xalaoğlu" kəndli-fermer təsərrüfatında görülən işlər, aparılan quruculuq tədbirləri təəssüratımızı daha da zənginləşdirdi. Sanki gözlərimə inanmadım. Bir il öncə gördüyüm ünvandan əsər-əlamət belə, qalmamışdı. Yeni istehsal sahələri yaradılmış, müxtəlif təyinatlı binalar inşa olunmuş, müəssisənin ətrafına hasar çəkilmiş, xüsusi zövqlə bəzədilmişdi. Giriş qapısında dayanacaq yaradılmış, müəssisə daxilində avtomobil yoluna asfalt salınmış, piyadaların gediş-gəlişi üçün nəzərdə tutulan səkilərə dekorativ kərpiclər döşənmiş, yaşıllıq zolaqları salınmışdı. Yaradılan ecazkar mənzərə bizi valeh etdi. Bu kəndli-fermer təsərrüfatı Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilovun baytarlıq xidməti ilə bağlı İspaniyada keçirilən beynəlxalq tədbirdə iştirak etdiyi zaman gördüyü və bizə söhbətində təsvir etdiyi fermer təsərrüfatına bənzəyirdi. Səliqə-sahmanı ilə gözoxşayan bu məkan kənddə aparılan abadlıq-quruculuq tədbirlərinə bir töhfədir.

Müəssisənin girişində bizi elə sahibkar Rafiq Əliyevin özü qarşıladı.

– Çox gözəl şərait yaratmısınız. Sağlığınıza qismət, – dedim.

– Şəraiti yaradan dövlətdir. Biz isə, sadəcə, vasitəçilərik. Buyurun, keçin.

Mühafizə xidməti üçün nəzərdə tutulmuş tikilidən keçib müəssisənin həyətinə yenicə ayaq basmışdıq ki, yaşıllıq zolağında sıralanmış, üstündə meyvəsi olan mandarin tingləri diqqətimi çəkdi.

– Bu mandarin tinglərini haradan gətirmisiniz?

– Mən gətirməmişəm. Yanaşı dayandığı cavan bir oğlanı göstərib, – oğlum Cəfərəli Türkiyədə Giresun Universitetində təhsil alır. Oradan gətirib, dibçəklərə əkib, ev şəraitində becərib, yerli şəraitə uyğunlaşdırıb. Gələcəkdə burada mandarin bağı da salacağıq, – deyib maldarlıq təsərrüfatına tərəf getdi.

– Hələ VII sinifdə oxuyarkən ailə başçısı oldum. Qardaş-bacımı böyütmək üçün ayrı-ayrı adamların əkin sahələrini suvarıb topladığım pulla 2 buzov alıb bəslədim. Kəsimdən sonra həmin pulla buzovların sayını ildən-ilə artırdım. İndi gördüyünüz bu fermer təsərrüfatının bünövrəsi belə qoyulub, – deyən Rafiq Əliyev yaxınlıqdakı binaları göstərərək, – bu iki binanı 2008-ci ildə inşa etdik. Hər biri 360 kvadratmetr olan binalarda hazırda 100 baş sağmal inək, 30 baş cöngə, 50 baş damazlıq düyə, hələlik 20 baş buzov bəslənilir.

– Qaba və qüvvəli yem sarıdan probleminiz yoxdur ki?

– Xeyr. Qış mövsümünə hazırlıq vaxtında aparılıb. Əkin sahələrimizdən kifayət qədər yaşıl və qaba yem tədarük etmişik. Qarışıq qüvvəli yemi isə "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətindən tələbata uyğun olaraq istənilən miqdarda, istənilən vaxt ala bilirik. Bir də ki digər sahibkarlar kimi, biz də gəlir-çıxarımızı vaxtında götür-qoy edir, hər il qış mövsümündə əlavə xərc çəkməmək üçün yaylaqdan dönən zaman ətlik cöngələri satır və ya rayon ərazisində fəaliyyət göstərən "Bərəkət Ət Məhsulları Kompleksi"nə təhvil verib pulunu da nağd alırıq. Bu il də elə etdik. Əldə etdiyimiz gəlirlə yeni istehsal sahəsi üçün hər biri 750 kvadratmetr olan iki bina inşa edib, ətlik istiqamətli quşçuluq təsərrüfatı qurduq, cücələrin bəslənilməsi üçün hər cür şərait yaratdıq. Onu da qeyd edim ki, heyvandarlıq və quşçuluq təsərrüfatları qurmaq işin bir tərəfidirsə, həmin təsərrüfatların sağlamlığının qorunması, sağlam ət və süd məhsulları istehsalı onu tamamlayan və deyərdim ki, vacib tərəfidir. Baytarlıq xidməti muxtar respublikamızda, o cümlədən fermer təsərrüfatımızın fəaliyyət göstərdiyi Babək rayonunda yüksək səviyyədə təşkil olunub. Sağlam təsərrüfatların qorunub saxlanılması üçün mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirilir. Elə söhbətimizin əvvəlində əbəs yerə demədim ki, şəraiti yaradan dövlətdir. Biz isə, sadəcə, vasitəçilərik. Kollektivimiz də göstərilən dövlət qayğısından bəhrələnir, təsərrüfatımızı daha da genişləndirməyə çalışır, ərzaq təhlükəsizliyinin təmin olunması üçün mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərir.

Müəssisədə istehsal edilən südün və quş ətinin son məhsul olaraq istehlakçılara çatdırılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, – deyən sahibkar fermer təsərrüfatının ərazisində tikilib istifadəyə verilən, Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyətə başlayan süd məhsullarının istehsalı və qablaşdırılması, quşların halal kəsimi və paketlənməsi sexləri, soyuducu anbarlarla bizi tanış edib, istehsal sahələri haqqında ətraflı məlumat verdi. Həmçinin üzərində "Xalaoğlu" fermer təsərrüfatında istehsal olunan məhsulların rəsmi çəkilmiş, soyuducu kamera ilə təmin olunmuş yük avtomobillərini göstərərək, – müəssisədə istehsal olunan və "Xalaoğlu" tanıtım nişanı ilə satışa çıxarılan qatıq, ayran, kərə yağı, dovğa və quş ətinin ayrı-ayrı rayonlarda fəaliyyət göstərən xidmət mərkəzlərinə yaxınlıqda çatdırılması da diqqət mərkəzində saxlanılıb, işçilərə iaşə xidməti göstərilməsi üçün yeməkxana, inzibati heyət üçün ayrı-ayrı iş otaqları olan ofis binası da istifadəyə verilib, – deyən Rafiq Əliyev bizi çay süfrəsinə dəvət etdi. Görülən işlərdən, gələcək planlarından həvəslə danışan fermer onu da qeyd etdi ki, yaxın vaxtlarda müəssisənin ərazisində firma mağazası da fəaliyyətə başlayacaq. Biz də öz işindən zövq alan, yorulmaq bilməyən sahibkara uğurlar arzulayıb xudahafizləşdik.

Təəssüratlarımızı, necə deyərlər, elə isti-isti ağ kağıza köçürmək üçün üz tutduq redaksiyaya. Yolboyu istər-istəməz qəlbimə hakim kəsilən bu fikir oldu: "Çörəyi ver çörəkçiyə, birini də üstəlik".

✍ Kərəm HƏSƏNOV

*Ölkəmizdə kənd təsərrüfatının inkişafının əsası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərində qoyulub. Bu istiqamətdə keçirilən tədbirlər nəticəsində Azərbaycan ittifaq respublikaları sırasında qabaqcıl yerlərdən birini tutub. Lakin ötən əsrin doxsanıncı illərinin məlum hadisələri, bütövlükdə, ölkə iqtisadiyyatını, o cümlədən kənd təsərrüfatını da iflic vəziyyətinə saldı, infrastruktur tamamilə dağıdıldı. Belə bir dövrdə ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtması ilə ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsinə qədəm qoyuldu. Uğurlu aqrar islahatlar həyata keçirilməyə başlanıldı. Ötən əsrin 90-cı illərində ilk dəfə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən bu islahatlar sonrakı dövrdə Azərbaycanın bütün ərazisində davam etdirildi.*

Dövlət proqramı necə icra olunur?

# Muxtar respublika sakinlərinin tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir

Son illər muxtar respublikamızda da kənd təsərrüfatının inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Qəbul olunan bir sıra sərəncam və qərarlar kənd təsərrüfatının inkişafına stimul verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası uğurla başa çatdırılıb. ***"Əldə olunan bu nəticələrlə kifayətlənmək olmaz. Çünki aqrar sektorda məhsuldarlığın artımı bir tərəfdən əhali tələbatının ilboyu yerli məhsullar hesabına dolğun şəkildə ödənilməsini təmin edirsə, digər tərəfdən yeni emal müəssisələrinin yaradılmasına və ixrac üçün kənd təsərrüfatı məhsullarının istehsalı hesabına muxtar respublikanın ixrac potensialının artırılmasına əlavə imkanlar yaradır",*** – deyən Ali Məclisin Sədri daha bir Sərəncamla "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nı təsdiq edib.

Qeyd edək ki, Naxçıvanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması muxtar respublikada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açaraq əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub, həmçinin sahələrin suvarma suyu ilə təmin edilməsi kənd təsərrüfatının inkişafını təmin edən əsas amillərdən biri kimi diqqətdə saxlanılıb. Odur ki, bu gün əhali ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin edilir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması da ilin istənilən fəslində bazarın təzə məhsullarla təminatına şərait yaradır. Hazırda muxtar respublikada meyvə-tərəvəz saxlanılması üçün ümumi tutumu 13.280 ton olan 29 soyuducu anbar fəaliyyət göstərir və bu anbarlara 4224,07 ton məhsul tədarük olunub.

Dövlət proqramında nəzərdə tutulan vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən bildirildi ki, muxtar respublikada kartof əkini ilə məşğul olan sahibkarların yüksəkkeyfiyyətli toxumla təchiz edilməsi məqsədilə cari ilin yanvar-oktyabr aylarında 279 istehsalçı toxumluq kartofla təchiz olunub, eləcə də muxtar respublikanın şəhər və qəsəbələrində yerləşən ticarət mərkəzlərində, kənd təsərrüfatı məhsullarının satışı obyektlərində gündəlik olaraq toxumluq kartofun satışı həyata keçirilib. Əkin sahələrinin genişləndirilməsi məqsədilə cari ilin ötən dövrü ərzində "Naxçıvan Meyvə Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 12 ton toxumluq sarımsaq məhsulu tədarük olunub və 9 ton sarımsaq məhsulu sahibkarlıq subyektlərinə satılıb.

Əhalinin ucuz və keyfiyyətli məhsullara tələbatının ödənilməsi, istehsalçıların öz məhsullarını birbaşa istehlakçılara çatdırması məqsədilə mütəmadi olaraq kənd təsərrüfatı məhsullarının satışı yarmarkasında məhsulların bazar qiymətlərindən 10-30 faiz aşağı qiymətə satışı həyata keçirilib.

Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında həm də istixana komplekslərinin mühüm əhəmiyyət kəsb edir. Bu mənada, muxtar respublikada torpaq mülkiyyətçilərinə göstərilən qayğı hər il yeni istixana komplekslərinin yaradılmasına səbəb olur. Cari ildə də yeni istixana komplekslərinin yaradılması davam etdirilib. Belə ki, cari ilin ötən dövründə dövlətdən də maliyyə dəstəyi alan Şərur rayonunun Qarxun kənd sakini Mənsur Abdinov 1296 kvadratmetr, Məmmədsabir kənd sakini Müslüm Məhərrəmov 1600 kvadratmetr, Babək rayonunun Yuxarı Uzunoba kəndində fiziki şəxs Murad Cabbarov 3500 kvadratmetr, Nəzərabad kəndində fiziki şəxs Hikmət Əliyev 2000 kvadratmetr sahədə istixana təsərrüfatı yaradıb. Ümumiyyətlə, bu sahəyə göstərilən diqqət və qayğı nəticəsində bu gün muxtar respublikada ümumi sahəsi 127 min 162 kvadratmetr olan 20 istixana təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatlarda cari ilin ötən dövründə 1200 tona yaxın məhsul istehsal edilərək satışı həyata keçirilib.

Məhz həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq bu gün tələbatın əsas etibarilə yerli istehsal hesabına ödənilməsinə nail olunub, daxili bazarda məhsul bolluğu yaradılıb. Hazırda əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsi üçün dövlət tərəfindən müvafiq tədbirlər davam etdirilir. Ümumilikdə, cari ilin yanvar-oktyabr ayları ərzində kənd təsərrüfatı subyektlərinə 8 milyon 970 min 600 manat kreditin verilməsi tərəvəz istehsalını əvvəlki ilə nisbətən artırıb. Belə ki, bu sahədə məhsuldarlıq ötən ilə nisbətən 1,5 faiz artaraq 76 min 220 ton təşkil edib.

Təbiət öz səxavətini yurdumuzdan əsirgəməyib. Sahib olduğumuz iqlim, bərəkətli torpaqlar, şirin su qaynaqları ölkəmizin hər yerində, o cümlədən Naxçıvanda hər cür tərəvəz məhsullarının əkilib-becərilməsinə imkan verir. Naxçıvanda tərəvəzçilik qədim məşğuliyyət növüdür. Müxtəlif mənbələrdə hələ tarixi İpək Yolu vasitəsilə buradan digər ölkələrə meyvə, səbzə aparılması haqqında məlumatlar da var. Bu inkişafın davamlılığını təmin etmək məqsədilə zamanla ayaqlaşan dövlət proqramları, mütərəqqi qanunlar qəbul olunur, aqrar sahənin inkişafına hesablanmış tədbirlər həyata keçirilir.

✍ Hafizə ƏLİYEVA



*2016-cı il oktyabrın 18-də Fransa vətəndaşı, səyahətçi və rejissor Jan Klod Forestier Naxçıvan Muxtar Respublikasına səfər etmiş, ölkəsinə qayıtdıqdan sonra Naxçıvan barədə məqalə yazaraq www.calameo.com portalında yerləşdirmişdir. www.calameo.com nəşr portalında 7 dildə elektron jurnallar, broşürlər, məlumatlar, xəbər bülletenləri, təqdimatlar, kataloqlar və kitablar nəşr olunur. Fransız səyyah və rejissorun 5 milyon istifadəçisi olan və 10 milyondan artıq jurnalın nəşr olunduğu portalda Naxçıvanla bağlı yerləşdirdiyi yazını təqdim edirik.*

# Fransız səyyah və rejissor Jan Klod Forestier: *"Azərbaycanın imicini formalaşdıran Naxçıvan öz tolerantlığı, müasirliyi və xüsusi qonaqpərvərliyi ilə bizdə böyük təəssürat yaratdı"*




Naxçıvanı tanıyırsınızmı? Ehtimal ki, yox. Təəccüblənməyin, nadir yerlərdən olan bu ərazi Qafqaz regionunda yerləşir və Azərbaycan Respublikasının tərkibində muxtar respublikadır. Ermənistan ilə Azərbaycan arasında olan münaqişəyə görə, bu bölgə Azərbaycandan tamamilə ayrı düşmüşdür. Yalnız hava yolu ilə paytaxtla əlaqə yaratmaq mümkündür.



Naxçıvanın tarixi çoxşaxəli və mürəkkəbdir. Biz oktyabr ayında Naxçıvanda səfərdə idik. Bu əraziyə turistlər səfər edir. Bəzi turistlər, demək olar ki, yalnız tək bir gecəni burda keçirirlər. Biz isə Naxçıvanda 3 gün qaldıq və ərazini tədqiq etdik. Gördüyünüz mənzərə Naxçıvanın Ermənistanla sərhədindən bir neçə kilometr məsafədə olan şimal-qərb hissəsidir.

Ərazi kiçik olsa da, memarlıq baxımından zənginliyi ilə seçilir. Ərazidəki əksəri müsəlman və türk üslubunda tikilmiş bu abidələrin incəliyi və geometrik detalları insanı heyran edir. Abidələr çox mükəmməl şəkildə yenidən bərpa olunub.

Naxçıvan həmçinin **Nuh Peyğəmbərin** vətəni olması ilə də qürur duyur. Nuh Peyğəmbərin gəmisi Naxçıvandakı dağa toxunub.







**Naxçıvanqala kompleksi**nin yaxınlığında Nuh Peyğəmbərin məqbərəsinin olması buranın mühüm ərazi olmasını təsdiq edir.









**Gülüstan və Möminə xatın** türbələrinin inşasında bişmiş kərpicdən istifadə olunmuşdur. Naxçıvan Muxtar Respublikasının rəmzi hesab olunan və üzərində hal-hazırda təmir işləri aparılan **Qarabağlar türbəsi** (təmir işləri 2017-ci ildə başa çatacaq) Azərbaycanın abidələri arasında ən möhtəşəmlərdəndir. Abidə tarixi İpək Yolunun üzərində yerləşən ən nüfuzlu dayanacaq nöqtəsi və ən azı 40 minarəyə sahib dini kompleksin tək sahibidir.



**Əshabi-Kəhf:** Təbii qayalardan ibarət bu mağara ziyarətgah hesab olunur. Həqiqətən qaya mənşəli olan bu yerdə İslam xalqının deyimlərinə istinadən (Quranın 18-ci surəsinə görə) "7 kimsə"nin baş və çiyinlərinin izinə rastlanırdı. Azərbaycanın imicini formalaşdıran Naxçıvan öz tolerantlığı, müasirliyi və xüsusi qonaqpərvərliyi ilə bizdə böyük təəssürat yaratdı.



Naxçıvanda olan digər nadir ərazilərdən biri isə **duz mədənidir**. Qədim dövrdən istismara verilən bu mədən yalnız İkinci Dünya müharibəsindən sonra tibbi məqsədlər üçün istifadə edilmiş və sanatoriyaya çevrilmişdir. Orada əsas mağara, oyulmuş duzlar və xüsusi olaraq xəstələrin gecəni keçirmələri üçün yerləşdirilmiş yataqlar diqqəti çəkir.







# Mütaliə etməyin vacibliyi uşaqlara müxtəlif vasitələrlə aşılanır

*Qapıdan içəri keçib elə bir-iki addım atıb dayanıram. İri hərflərlə yazılmış “Milli dəyərlərimiz” ifadəsi gözümə sataşır, ayaq saxlayıb bu guşəyə diqqətlə baxıram. Balaca samovar, uşaqlar üçün milli geyimlər və sair. Bütün bunlar sanki qapıdan içəri keçənlərə “bura uşaqlara xidmət edir” mesajını verir. Bəli, çox gözəl və uğurlu bir məlumatlandırma üsuludur. Bura, doğrudan da, uşaqlara xidmət edir. Söhbət Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasından gedir.*



Geri qayıdıb koridorun sağ tərəfindəki otaqdan oxu zalına keçmək istəyirəm. Elə içəri keçməklə bir guşə yenə ayaq saxlamağıma səbəb olur. Bu guşə kitabxananın adını daşıdığı Adil Babayevə həsr olunub. Burada onun fotoları və müxtəlif kitabları sərgilənib. Xeyli dayanıb onlara nəzər saldıqdan sonra, nəhayət ki, oxu zalına keçirəm.

Zalda əyləşib mütaliə ilə məşğul olan uşaqlara yaxınlaşıram. Üçüncü sinif şagirdi olan Nizami Hacıyev dərslərini hazırladıqdan sonra asudə vaxtını səmərəli keçirmək məqsədilə buraya üz tutduğunu bildirir. O deyir ki, çox vaxt nağıl kitabları oxuyur. Tərbiyəvi əhəmiyyətli nağılları oxumağı sevən Nizami yaşına uyğun olan ədəbiyyatlar seçdiyini və oxuduğu hər kitabdan nəticə çıxarmağa çalışdığını vurğulayır.

Digər bir azyaşlı oxucu – dördüncü sinif şagirdi Sənan Fətəliyev də bu kitabxanaya tez-tez gəldiyini, buranın kitab fondundan istifadə etdiyini bildirir. Sənan deyir ki, şeirləri çox sevir, elə buna görə də dərsliklərdə oxuduqları ilə qane olmayıb bacardığı qədər çox şeir əzbərləməyə çalışır. Balaca müsahibimizin ağız dolusu danışığından hiss olunur ki, deyəsən, o axtardıqlarını asanlıqla tapdığı bu ünvanı çox sevdiyindən tez-tez buraya gəlir. Balaca müsahibimizə məsləhət görürük ki, şeirə vurğunluğu dərslərində geriləməsinə yol verməsin, bacardığı qədər hər ikisinə də diqqət yetirsin.

Beşinci sinif şagirdi Fidan Ramazanova isə dərslərdə çətinlik çəkdiyi zaman buraya müraciət edərək onları aradan qaldırdığını deyir:

– Burada olan bir çox kitabdan, daha çox lüğətlərdən istifadə edirəm. Xarici dil tapşırıqlarının, demək olar ki, hamısını burada həmin lüğətlərin köməkliyi ilə yerinə yetirirəm.

Məktəb şagirdləri ilə yanaşı, kitabxananın daha azyaşlı üzvləri də var ki, onlar, əsasən, valideynləri ilə buraya gələrək boyama kitabçalarındakı şəkilləri boyayır, səsli nağıl danışan kitablardan nağıllar dinləyir və kitabxananın uşaqlar üçün yaradılan imkanlarından yararlanırlar.

Kitabxananın direktoru Kəmaləddin Axundov deyir ki, burada 8 şöbə fəaliyyət göstərir. Yüz yetmiş minə yaxın kitab fonduna malik kitabxananın 12 min dörd yüz otuz səkkiz üzvü var. Bu il isə 96 nəfər kitabxanaya üzv olub. İl ərzində fonda 242 adda 402 ədəbiyyat daxil edilib ki, bunlardan da 90-ı birinci-dördüncü siniflər üçün dərsliklərdir.

Öyrənirəm ki, kitabxana muxtar respublikada fəaliyyət göstərən rayon, şəhər Mərkəzləşdirilmiş Kitabxana sistemlərinin uşaq şöbələri, eləcə də orta məktəb kitabxanaları üçün metodik mərkəz rolunu oynayır. Belə ki, kollektiv indiyədək 40-dan çox orta məktəb kitabxanasında “Kitabxana işinin yeni metodları” adlı seminar-məşğələlər keçirib. Əməkdaşlar Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Universitetində də seminarlarda iştirak ediblər. Hər ayın son həftəsində “Kitabxana günü” keçirilir. Burada kitabxana işində yeniliklər, kitabxana fonduna daxil olan yeni kitablar və sair məsələlər haqqında müzakirələr aparılır.

Hər həftə məktəbəqədər təhsil müəssisələrində “Nağıl günü” keçirilir. Kitabxana əməkdaşları hər dəfə bir xalq nağılını uşaqlara danışdıqdan sonra onlar həmin nağılı video vasitəsilə əyani şəkildə izləyirlər. Sonda isə həmin nağıl üzərində balacalarla müzakirə aparılır, nağıldakı tərbiyəvi cəhətlər uşaqlara aşılanır. Məktəbəqədər təhsil müəssisələrində “Uşaqların nağıl dünyası” adlı sərgi də təşkil edilir. Burada rəngli uşaq kitab və jurnalları, rəsm əsərləri və sair sərgilənir.

Kəmaləddin Axundov deyir ki, kitabxananın oxucuları arasında tez-tez şeir, rəsm və digər müsabiqələr keçirilir, yüksək nəticə göstərən iştirakçılar mükafatlandırılır, oxucuların şair və yazıçılarla görüşləri, eyni zamanda onların tarixi və əlamətdar günlərdə muzeylərə ziyarətləri təşkil edilir. 21 sentyabr – Beynəlxalq Sülh Günü münasibətilə “Biz sülh istəyirik” devizi altında uşaqlar arasında kağız üzərində deyil, tam fərqli tərzdə, asfalt üzərində rəsm müsabiqəsi keçirilib. Müsabiqədə yer tutmayan uşaqlar da buradan çox xoş təəssüratlarla ayrılıblar.

Digər bir fərqlilik isə kitabxananın, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən “Təbiətə məktəbli töhfəsi” adlı aksiyadır. Bildiyimiz kimi, istifadə olunmuş bir batareya yerə düşdüyü zaman 2 kvadratmetr ərazini istifadəyə yararsız hala çevirir. Bunun qarşısını almaq üçün aksiya iştirakçıları orta məktəblərdə şagirdlərlə görüşüb aksiyanın mahiyyəti baxımından onları maarifləndirib və ümumi bir vaxt təyin edərək həmin batareya toplayan uşaqları bir yerə yığıblar. Kəmaləddin Axundovun dediyinə görə, uşaqlar birlikdə nə az, nə də çox düz 30 min istifadə olunmuş batareya toplayıb gətiriblər. Həmin batareyalar Fövqəladə Hallar Nazirliyi tərəfindən zərərsizləşdirilib. Uşaqları həvəsləndirmək məqsədilə daha çox batareya gətirənlərə müxtəlif hədiyyələr təqdim olunub. 2017-ci ildə də belə əhəmiyyətli bir aksiya keçirmək planlaşdırılıb.

Yayda “Kitabı sevin”, “Kitab bilik mənbəyidir” adlı 300-400 kitabdan ibarət sərgilər də keçirilir. Bu sərgiləri digərlərindən fərqləndirən onların hər hansısa müəssisədə, ya da qapalı bir yerdə deyil, Naxçıvan şəhərinin müxtəlif park və meydançalarında baş tutmasıdır. Bu zaman uşaqlar maraqla kitabların ətrafına toplanır, diqqətlərini çəkənləri vərəqləyib məzmunu ilə tanış olur, daha sonra isə həmin uşaqların bir çoxu kitabxanaya müraciət edərək buranın oxucusu kimi istədiyi ədəbiyyatı əldə edir.

Kitabxanada “Bacarıqlı əllər”, “Nağıllar aləmi” adlı guşələr də yaradılıb. Bu guşələrdə istedadlı oxucuların əl işlərindən nümunələr yer alıb. Əl işlərinin hazırlanmasında kitabxananın əməkdaşları onlara yaxından köməklik göstərir, lazımi məsləhətlər verirlər.

Kitabxananın yay oxu zalı bəzi oxucular üçün mühüm iş icra edir. Belə ki, təhsil ili ərzində aşağı nəticə göstərən şagirdlər yay boyunca həftədə iki dəfə olmaqla ixtisaslı müəllimlər tərəfindən burada növbəti tədris ilinə hazırlanırlar.

Duzdağ Fizioterapiya Mərkəzində və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində kitabxananın bölmələri fəaliyyət göstərir. Kitabxana işçiləri sağlamlıq imkanları məhdud, yataqdan qalxa bilməyən uşaqlara hər ay baş çəkir, müxtəlif məktəbli ləvazimatları, bədii kitablar aparır, onların oxumaqlarına köməklik göstərirlər. Bu kateqoriyadan olan 41 uşaq evdə kitabxananın xidmətindən yararlanır.

Ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin “Uşaqlar bizim gələcəyimizdir” şüarını əzbər bilməyən çox az insan tapmaq olar. Bəzi ailələrdə dəfələrlə rast gəlmişəm ki, uşaqlara ünvanlanan “sən atanın nəyisən?” sualını uşaq heç düşünmədən “gələcəyi”, – deyə cavablandırır. Haqlıdır da. Hər bir uşaq ailənin, cəmiyyətin, ölkənin gələcəyidir. Bu günün uşaqları sabahın gəncliyi, sabahın gəncliyi isə gələcəyimizdir. Bu yolda uşaqlarımızın mütaliə etmələri, vaxtlarını bu işə cəlb olunmaları vacibdir. Bəhs etdiyimiz kitabxana da öz işini bu istiqamətdə qurub.

✍ **Fatma BABAYEVA**

---

***Naxçıvan Muxtar Respublikasında idmanın kütləviliyinin təmin edilməsi regionda yaradılan şərait hesabına mümkün olub. Bu gün diyarımızın bütün şəhər və rayonlarında gənclərin idmanın müxtəlif sahələrinə marağı artmaqdadır. Təbii ki, insanların idmana yönəlməsi həm də sağlam nəslin formalaşmasını təmin edir.***

# Federasiyaların Ordubad rayonundakı bölmələri necə fəaliyyət göstərir?

Muxtar respublikada bu sahənin geniş vüsət alması üçün Gənclər və İdman Nazirliyi, həmçinin federasiyalar fəaliyyət dairələrini genişləndirməkdədirlər. Gənclər və İdman Nazirliyi, federasiyalar rayonlarda idmanın kütləviliyini təmin etmək üçün yarışlar, turnirlər təşkil edirlər. Rayon Gənclər və İdman idarələri nazirliyin təsdiq etdiyi plana uyğun olaraq gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasına öz töhfəsini verir. Bəs rayonlarda federasiyaların bölmələri fəaliyyət göstərirmi? Göstərirsə, onların fəaliyyəti hansı səviyyədədir?

Bunu Ordubad rayonunun timsalında araşdırdıq. Əvvəlcə onu qeyd edək ki, bu bölgəmizdə də idmanın kütləviliyi diqqət mərkəzində saxlanılır. Hazırda Ordubad rayonunda 12 federasiyadan 8-nin bölməsi fəaliyyət göstərir.

Basketbol Federasiyasının bölməsi alqışlanası addım atıb və rayonda qızlardan ibarət komanda yaradıb. Namiq Əliyevin məşqçilik etdiyi komanda həftənin 3 günü (I, III və V) Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəbin idman zalında məşqlərini davam etdirir. Həftənin iki günü isə oğlanlardan ibarət komandaya Nahid Əliyev məşq keçir.

Şahmat Federasiyasının bölməsi isə məşqlərini rayon Şahmat Məktəbində aparır. Məşqçi-müəllim İsrafil Məmmədov bizimlə söhbətində bildirdi ki, hazırda şahmat Ordubadda ən çox sevilən idman növüdür. Bunun nəticəsidir ki, rayonun iki zəka sahibi iyun ayında keçirilən Azərbaycan birinciliyində iştirak edib, Seyid Hüseyn üçüncü, Zərrin Məmmədli isə dördüncü olub. İnkişaf etməsi üçün rayonda üç dövlət orqanına tapşırılan futbolda isə vəziyyət heç də ürəkaçan deyil. Həftənin bir günü məşq keçən futbolçular bu il uğura da imza atıblar. Belə ki, Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyinin qalibi olan 13 yaşlı futbolçular Bakı şəhərində keçirilən final görüşlərinə vəsiqə qazanıblar. Deməli, istedadlı uşaqlar və şərait var, daha çox uğur qazanmaq üçünsə həftədə bir dəfə yox, bir neçə dəfə məşq etmək lazımdır. Həftədə bir dəfə məşq edən federasiyalardan biri də voleyboldur. Hamlet Əliyevin rəhbərliyi altında 14 voleybolçu Ordubad şəhərindəki internat məktəbinin idman zalından istifadə edir.

Rayonda onu da öyrəndik ki, idmançılara ən çox dəstək olan federasiyalardan biri Yüngül Atletikadır. Federasiya digər rayonlarda olduğu kimi, Ordubadda da bu növün inkişafı istiqamətində mühüm addımlar atıb. Məşqçi-müəllim Ələfsər Əliyevin rəhbərliyi ilə bölmədə hazırda 20-dən çox atlet bu növün sirlərini öyrənir.

Güləş, Karate-do və Boks federasiyalarının bölmələrində isə, ümumilikdə, 60-dan çox idmançı var. Güləş müəllimi Elşad Əliyev bildirdi ki, əsas məqsədləri istedadlı uşaqları üzə çıxarmaq və onları qarşıdakı yarışlara hazırlamaqdır.

Karate-do bölməsinə isə Eldəniz Zeynalov rəhbərlik edir. Hər zaman boksçuların nailiyyətləri ilə fərəhlənən ordubadlılar bu dəfə istedadlı gənclərin uğurlu çıxışına görə Müzəffər Həbibova minnətdardırlar. Məşqçi-müəllimin rəhbərliyi altında 15-ə yaxın boksçu bu növün sirlərini öyrənir.

Rayonda olarkən öyrəndik ki, federasiyaların bölmələrinin müəllimləri Ordubad Rayon Uşaq-Gənclər İdman Məktəbinin müəllimləridir. Onlar həftənin 4 günü idman məktəbi üçün çalışırlarsa, bir günlərini federasiyaların bölməsinə ayırıblar. Təbii ki, bu, qarşılıqlı razılaşma əsasında olub.

8 federasiya bölməsinin fəaliyyəti barədə məlumat aldıqdan sonra “adı olub, özü olmayan” bölmələrin də işi ilə maraqlandıq. Paralimpiya bölməsində nə məşqçi var, nə də ki məşq. Fiziki imkanları məhdud olan insanlar isə yalnız keçirilən yarışlarda bir araya yığışır. Hava və Ekstremal İdman Növləri Federasiyasının bölməsində də vəziyyət ürəkaçan deyil. Bölmənin adı olsa da, nə idmançısı var, nə məşqi, nə də ki məşqçisi.

Atıcılıq və Şərq Döyüşü Sənəti federasiyalarının isə Ordubad rayon bölmələri yoxdur.

*Rayonda gördüklərimizdən sonra deyə bilərik ki, Ordubadda idmanın inkişafı üçün istedadlı gənclər və şərait var. Rayon Gənclər və İdman İdarəsi ilə Uşaq-gənclər idman məktəbi bu yöndə əlindən gələni edir. Bu istiqamətdə federasiyaların da üzərinə mühüm vəzifələr düşür. Təmsil etdikləri idman növlərini inkişaf etdirmək üçün federasiyaların bölmələrinə “filan yarışa idmançı gətir” demək yox, kömək etmək lazımdır.*

✍ **Ceyhun MƏMMƏDOV**

---

## 5 yanvar 2017-ci il tarixdə Naxçıvan şəhərində saat 11[00]-da hərraca çıxarılacaq müəssisə haqqında məlumat

| Sıra №-si | Müəssisənin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 % | Obyektin satış qiyməti | Behin həcmi 10% |
|---|---|---|---|---|---|---|
| 1. | “Dəstə Taxıl Emalı Müəssisəsi” MMC | Ordubad rayonu, Dəstə kəndi | 2005 | 104832,00 | 52416,00 | 5241,60 |

**Qeyd:** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

– sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd;

– müəyyən edilmiş formada sifariş;

– Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrəsi: 545-01-38, 545-02-36***

### İtmişdir

Şahbuz rayonunun Keçili kənd sakini Məsimalıyev Firudin Sarı oğlunun adına olan 158 B/O nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 918